**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

№ 013/507

Bakı şəhəri

"09" fevral 2026-cı il

**Fərdi baytarlıq xidməti praktikası ilə məşğul olan fiziki şəxsin uçota alınmasına dair şəhadətnamənin ləğvi ilə bağlı Qərarın ləğv edilməsi haqqında**

"Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun 5.4-cü maddəsinə əsasən, fərdi baytarlıq xidməti praktikası ilə məşğul olmaq istəyən Həsənov Tarqulu Adıgözəl oğlunun (FİN: 47U2AUB) 2021-ci il 27 dekabr tarixli müraciəti əsasında, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) 2021-ci il 6 sentyabr tarixli Ü/123 nömrəli "Fərdi baytarlıq xidməti praktikası ilə məşğul olmaq istəyən fiziki şəxslərin uçota alınması işinin təkmilləşdirilməsi haqqında" Əmrinə uyğun olaraq, Fərdi baytarlıq xidməti praktikası ilə məşğul olan fiziki şəxsin uçota alınmasına dair 2021-ci il 28 dekabr tarixli VET-21-A-01243 nömrəli şəhadətnamə təqdim edilmişdir.

Həsənov Tarqulu Adıgözəl oğlunun (FİN: 47U2AUB) adına yazıldığı qeyd edilmiş Φ №254762 nömrəli diplom blankı Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyindən alınmaması və təhsil müəssisəsi tərəfindən hər hansı məzuna verilməməsi ilə bağlı Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Elm və Ali Təhsil üzrə Dövlət Agentliyindən Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinə 2025-ci il 17 iyul tarixli 9-3/2-966/2025 nömrəli məktubu Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinə daxil olmuşdur. Daxil olmuş məktuba əsasən Həsənov Tarqulu Adıgözəl oğluna (FİN: 47U2AUB) təqdim edilmiş Fərdi baytarlıq xidməti praktikası ilə məşğul olan fiziki şəxsin uçota alınmasına dair 2021-ci il 28 dekabr tarixli VET-21-A-01243 nömrəli şəhadətnamə 2025-ci il tarixli 4 dekabr tarixli 077/483 nömrəli Qərarı ilə ləğv edilmişdir.

Lakin, Həsənov Tarqulu Adıgözəl oğlu (FİN: 47U2AUB) tərəfindən Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Elm və Ali Təhsil üzrə Dövlət Agentliyindən təqdim edilmiş elektron arayış əsasında, qeyd edilən diplomun həqiqiliyi təsdiq edilmişdir. Bununla əlaqədar, Həsənov Tarqulu Adıgözəl oğlunun (FİN: 47U2AUB) Fərdi baytarlıq xidməti praktikası ilə məşğul olan fiziki şəxsin uçota alınmasına dair 2025-ci il tarixli 4 dekabr tarixli 077/483 nömrəli Qərarın ləğv edilməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-8-ci yarımbəndinə uyğun olaraq,

ƏSLİ İLƏ DÜZDÜR

Abbasov T.K.
09.02.2026

**Qərara alıram:**

1. Həsənov Tarqulu Adıgözəl oğluna (FİN: 47U2AUB) təqdim edilmiş Fərdi baytarlıq xidməti praktikası ilə məşğul olan fiziki şəxsin uçota alınmasına dair 2021-ci il 28 dekabr tarixli VET-21-A-01243 nömrəli şəhadətnamənin ləğv edilməsi ilə bağlı 2025-ci il 4 dekabr tarixli 077/483 nömrəli Qərar ləğv edilsin.
2. Həsənov Tarqulu Adıgözəl oğlunun fərdi baytarlıq xidməti praktikası ilə məşğul olması ilə bağlı 2021-ci il 28 dekabr tarixində təqdim olunmuş VET-21-A-01243 nömrəli şəhadətnamə qüvvədə saxlanılsın.
3. Bu Qərarın Agentliyin struktur bölmələrinə, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsi təmin edilsin.

**Heyvan sağlamlığı şöbəsinin müdiri,**
**Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

Chief Veterinary Officer

ƏSLİ İLƏ DÜZDÜR

Abbasov T.K.
09.02.2026